Ədəbiyyat qəzeti

# *Bir sevgili, hər dərdin gözünə yaş qoyacaq,*
# *Bir iman istəyirəm, uğruna baş qoyacaq.*



## Behcet Kamal ÇAĞLAR

*Görkəmli şair, dramaturq, publisist, araşdırmaçı Behcət Kamal Çağlar 1908-ci ildə Ərzincanın Təpəcik kəndində anadan olub. Erkən yaşlarından yaradıcılığa meyl göstərib. "Ərciyəzdə uçqun", "Burada bir ürək döyünür", "Məndən içəri" və s. şeir kitablarının müəllifidir.*

*Elat ədəbiyyatını son dərəcə mükəmməl bilən Behcət Kamal Çağlar demək olar ki, bütün türk ozanlarının (Yunus İmrə, Qaracaoğlan, Dadaloğlu, Pir Sultan Abdal, Əmrah və b.) dilindən şeirlər yazmışdır.*

*Behcət Kamal Çağların bu gün də səhnədən düşməyən "Ərgənəkon" və "Attila" pyesləri tarixi əsərlərə xüsusi maraq göstərən Mustafa Kamal Atatürkün də diqqətini çəkmişdir.*

*Behcət Kamal Çağlar Faruk Nafiz Çamlıbel, Əflatun Cem Güney, Yahya Kamal Bəyatlı və Əhməd Həmdi Tanpınar kimi ünlü şairlərlə dostluq etmişdir. O, məşhur türk şair və filosofu Ziya Göyalpın vəfatının on illiyi ilə bağlı keçirilən tədbirdə demişdir: "Zaman onun xeyrinə işləyir - hər saniyə dəyəri artır". Maraqlıdır ki, Ziya Göyalpın həyat və yaradıcılığına müraciət edən araşdırmaçıların böyük əksəriyyəti öz yazılarında bu fikrə şərik çıxmışlar.*

**Üç şeyin yolunda can-baş qoymuşam,**
**Ana yurd, Atatürk və sən, sevdiyim.**

### MUSTAFA KAMAL

Yüz illər öncəsindən,
Yüz illər sonrasından
səslənirəm sizə -
Ehey,
Mən Mustafa Kamalam,
Mən Mustafa Kamalam.
Böyük-böyük
dənizlərim var mənim,
Dalğaları azadlıqtək qabarır.
Qaranlığı dələr gözlərim,
Millətimin sabahıdır sevincim...
Bir günəş doğmuşdu ha,
Samsundan.
İştə, o mənəm...
Mən...
Mustafa Kamal...
"Vətən uğrunda
ölmək yaşamaqdır" - deyib,
Atıldım savaşa.
Əmr verdim -
Şahlandı cümlə vətən.
Yüz illər öncəsindən.
Yüz illər sonrasından
gəlir səsim.
Sevgilim.
Bir dənəm.
Türkiyəlim,
Sən var olduqca, bəlli ki,
Mən Mustafa Kamalam.
Mən Mustafa Kamalam!

### SƏN

Qərbdə dağ, şərqdə irmaq.
Harda olsam, murad sən;
Cənuba düşsə yolum,
Dəclə sənsən, Fərat sən.
Canım-gözüm obalarda
Əkin-biçin, hasat sən;
Məltəmimsən Konyada,
İzmirdəysəm, imdad sən.
Şair isəm, sözlərimə
Məna verən inşat sən;
Mən yuxulu bir çocuq,
Şahlanan ifrat sən.
Nə edərəm mən sənsiz,
İrşad sənsən, irşad sən;
Susuz isəm, bulağımsan,
Boğulursam, imdad sən.
Cənnətdə gül bağçası,
Cəhənnəmdə sirat sən;
Uzun sözün qısası,
Həyat sənsən, həyat sən.

### SEVDİYİM

Üç şeyin yolunda can-baş qoymuşam,
Ana yurd, Atatürk və sən, sevdiyim.

Qovaq yeli əsməz mənim başımda,
Atatürk yelidir əsən, sevdiyim.

Diz çök, diz çok Anıtqəbrin önündə,
Hər kəsi qısqanıb küsən sevdiyim.

Mustafa Kamalın əsgəriyəm mən,
Bil, öləcəyəm, öl desə, sevdiyim.

Bəlkə gedəcəyik yenə savaşa,
Ki, sən qalasan sağ-əsən, sevdiyim.

Öp məni alnımdan, yola sal, gözlə,
Gələcəyəm, ruh da olsam, sevdiyim.

### ÇOCUQLAR

Arxası üstə yatıb dincəlməli gün deyil,
Daha görəcəyimiz çox işlər var, çocuqlar.

Nə qədər erkən yağdı gördünüzmü bir sabah
Neçə güvəndiyimiz dağlara qar, çocuqlar.

Baxın, hey fasiləsiz əl eləyir gələcək,
Hardasınız, cəld olun, vaxtımız dar, çocuqlar.

Toplandıqmı biz bir yerə, verdikmi biz əl-ələ,
Su çəkilər, dağ çökər, aləm susar, çocuqlar.

Yurdumuz başdan-başa cənnət olacaq: cənnət,
Dadından çatlayacaq budaqda nar, çocuqlar.

Sizi bir-bir tanıyıb, alnımızdan öpməyə
Mustafa Kamal yolda, ey bəxtiyar çocuqlar.

### CÜMHURİYYƏT

Ey bizə bu günləri bəxş edən şəhidlər,
Ey hürriyyət yolunda can verən qoç igidlər.

Ey qəhrəman Atatürk, sizlərə minnətdarıq,
Rahat-rahat uyuyun, növbədə bizlər varıq.

Canımızdan əzizdir qoyduğunuz əmanət,
Şərəfdir cümhuriyyət,
Namusdur cümhuriyyət.

Od içində doğulduq, yuxu bizə yaramaz.
Ölüm belə arasa, bizi evdə bulamaz.

Hürriyyət üçün, Koreyanı belə vətən bildik,
Ədirnə, Çanaqqala, İzmir, Ərdahan bildik.

İnandığımız yolda dağıdar dağı-düzü,
Yağıların bağrına sancarıq süngümüzü.

Qəlbimiz bir vurduqca hürriyyətlə, imanla,
Türk yurdu ucalacaq min bir şərəflə, şanla.

Ey ölümsüz Atatürk, ümidisən millətin,
Min illərlə duracaq, inan, Cümhuriyyətin.

## DÖRD OZAN DER Kİ...

*CAMAL XOCA*

Ərvahi-əzəldə bezmi-ələstə
Cəm olub, hüzuri-Rəhmanə gəldik.
İkramımız belə, huşumuz məstdə,
Əli bağlı səf-səf divana gəldik.

*MÜDAMİ*

Ərvahi-əzəldə - yaradılışda
Belə deyə tamam imana gəldik.
Nuri-Məhəmmədlə ilkin görüşdə
Şəfaət umaraq güvənə gəldik.

*AŞIQ ÖMƏR*

Doqquz yüz qırx iki... tarix bu zaman...
Qarsdakı o bəldəi-tərənə gəldik.
Sevdanın əlindən edib ah-fəğan,
Könül mətahında ziyana gəldik.

*NİHANİ*

Üç yüz on səkkizdə xətm oldu qəflət,
Sevgi izhar oldu, bəyana gəldik.
Yaxdı qəlbimizi qəm ilə həsrət,
Canan qapısına amana gəldik.

*CAMAL XOCA*

Biz bir məclis qurduq qəlbə xoş anda,
Məbudu tanıdıq ta o zamanda.
Kafirlər küfründə, minkir gümanda,
Şükür, biz illa da bu yana gəldik.

*MÜDAMİ*

Ərşdə nur qəndili yandığı zaman,
Mələklər çarx kimi döndüyü zaman,
Ol Adəm cənnətdən endiyi zaman
Biz onun belindən cahana gəldik.

*NİHANİ*

Bərabər otlarını qurdlar, qoyunlar,
Nədi başımıza gələn oyunlar?
Diləriк tezliklə son bulsun bunlar,
Loğman qapısına dərmana gəldik.

*AŞIQ ÖMƏR*

Bir gör nə zamanlar keçib dövr etdi,
Fələk gah lütf etdi, gahi cövr etdi,
Sağalmaz dərdimiz müdam qövr etdi,
Atatürk deyilən aslana gəldik.

*CAMAL XOCA*

Mürid irşad üçün əmələ möhtac,
Kamillər yanında kəmalə möhtac,
Der ki, Camal aləm Camala möhtac,
Yana-yana yandıq pərvanə gəldik.

*MÜDAMİ*

Şükr et, Müdami, əzəl baxtımız nurda,
Gözümüz qalmadı dövlətdə, varda.
İnamdı, imandı sərvət hüzurda,
Dəst-bus eləyib, gümana gəldik.

*NİHANİ*

Heyranam baharın tər nəfəsinə,
Tərpənə dağ yeli, açıla sinə.
Nihani der şanlı ordu səsinə
Gərəksə qan verib, qurbana gəldik.

*AŞIQ ÖMƏR*

Aşıq Ömər, dünya böylə yürüsün,
Yenə könülləri sevinc bürüsün.
O gül bizim deyilsə, solsun, qurusun.
Biz dörd sarı bülbül fəğana gəldik.

*QARACAOĞLANIN DİLİNDƏN*

Duruldum göllər kimi,
Qara gözlüm, iç daha.
Sərildim yollar kimi,
Tapda, tapda, keç daha.

Düzəldi yenə hava,
Ovcular çıxarlar ova.
Bağrım çöl, könlüm ova,
O şəhərdən köç daha.

Gün qurutmuş gülümü,
Mövlan qırmış qolumu...
Əgər kəssən yolumu
Bir könlüm var - bac daha.

Yosunlar göz yaşımdan,
Dərdim aşar başımdan.
Uçuq məzar daşından
Seçilməyim güc daha.

Qar yağar iplik-iplik,
Mayamdadı qəriblik.
Nəyim qaldı təbiblik,
Həkim-məkim heç daha.

Qorxma, sanma qan olur,
Təzə ay tırpan olur.
Qış günü xırman olur?
Gəl tarlamı biç daha.

Deyiləm nankor-filan,
Qədrimi qara ceyran
Bilməzsə Qaracaoğlan -
Bilməz yadlar heç daha.

## ÇORUH ÇAYI

Çoruh coşqun, Çoruh xırçın, Çoruh şən,
Dalğaları nəbz kimi atır hey.
Bir təpədə Aşıq Zihni dayanıb,
Bir təpədə şəhid Osman yatır hey!

Gözüm qaldı xına-xına daşında,
Qalası var, duman oynar başında.



Qovaqları ulduzların peşində,
Bülbülləri fəraq-fəraq ötər hey.

Salalisi həsrətini dənəmiş,
Hicranisi sevdasızı qınamış.
Zaman saat qülləsində tünəmiş,
Tonqalları burum-burum çatır hey.

Qızlarının sona kimi boyu var,
Bulaqların diş göynədən suyu var.
Qopuzu var, türküsü var, toyu var,
Könülləri bir-birinə qatır hey.

Yayı yayladısa, qışı qışladı,
Gəlməyən, gərməyən günah işlədi.
Madam Çoruh danışmağa başladı,
Behçət, sənin sözün burda bitir hey.

## İSTƏYİRƏM

Bir çiçək istəyirəm, mən baxmadan solası,
Bir qanad istəyirəm, məni yerdən alası,
Bir günəş istəyirəm, gecə məndə qalası.

Bir mərmər istəyirəm, arzumca oymaq üçün,
Bir qadın istəyirəm, ruhunu soymaq üçün,
Bir cüt diz istəyirəm, başımı qoymaq üçün.

Bir zəncir istəyirəm, hirsimi bağlayacaq,
Bir yanğı istəyirəm, ruhumu dağlayacaq,
Bir ana istəyirəm, üstümdə ağlayacaq.

Bir bilinməz qalanı fəth etmək təkbaşına,
Vurulub düşmək birdən son bürcün, son daşına,
Uzanan bir cüt dodaq gözlərimin yaşına.

Bir ilham istəyirəm, bir gün vəhyə erecək,
Bir cüt göz istəyirəm, can evimi görəcək,
Bir sevgi istəyirəm, ömürlərcə sürəcək.

Bir mehrab istəyirəm, önündə diz çökməyə,
Bir yer istəyirəm yoldan, fidan dikməyə,
Bir toxum istəyirəm, boş torpağı əkməyə

Bir bina, təməlinə əlimlə daş qoyacaq,
Bir sevgili, hər dərdin gözünə yaş qoyacaq,
Bir iman istəyirəm, uğruna baş qoyacaq.

## ÇANKIRI

Quş ötər, kəsik-kəsik,
Göylər ulduz çisələr,
Karvandır, canı əskik,
Çankırıda təpələr.

Qaya belə tüldü, tül,
Tikan belə güldü, gül.
Küskün olsa da könül,
Qapısını aralar.

Çəmənlər ipək-ipək,
Budaqlar çiçək-çiçək.
Yaylaqlar pətək-pətək -
Balla dolar dərələr.

Lalədimi el qızı,
Yanaq, dodaq qırmızı.
Yer-göy tutmaz cehizi -
Belə imiş törələr.

Söyüd budağı uzun,
Nə kədər, nə də hüzn...
Çankırı, oğlun, qızın
Der: mənimdir buralar.

## ATATÜRKƏ

Yenə xırmanımız rüzgar gözləyir,
Əs yenə, əs yenə, samanı sovur.
Aydınlat göyləri masmavi şimşək.
Bu çat-çat torpağın həsrəti yağmur.
Çırmala qolunu, çırmala yenə,
Qəlblərdə sevgini mayala, yoğur.
Doğ yenə, doğ yenə yurdun üstünə,
Sənsiz ürəklərin odu soyuyur.

*Hazırladı:*
***DİLSUZ***

